# Dünya təsərrüfat əlaqələrinin inkişafının nəzəri əsasları haqqında

**Ülviyyə ŞİRİNOVA,**
*Azərbaycan Universitetinin dissertantı*

*Beynəlxalq əmək bölgüsü, onun səbələri və hərəkətverici qüvvələri haqqında nəzəri baxışlar, iqtisad elminin xassələri A.Smit və D.Rikardo əsərlərindən qaynaqlanır. XVIII əsrin 70-ci illərində A.Smit sübut etdi ki, ölkələrarası ticarətin əsasında hər hansı bir sahə məhsullarının milli istehsal xərc-lərində olan fərq dayanır.*

D.Rikardo müqayisəli üstünlüklər nəzəriyyəsində göstərdi ki, hər bir ölkə hər hansı bir məhsul istehsalında nisbi üstünlüyə malikdir. Çünki onları digər məhsullara nisbətən daha az əmək sərfi ilə istehsal edir. Ölkə nisbi az əmək sərf edilən məhsulun istehsalı üzrə ixtisaslaşaraq və onları ixrac edərək daxildə istehsalı baha başa gələn məhsulu isə idxal edir. Beləliklə, hər vahid əmək sərfinə ölkə ona lazım olan daha çox məhsul əldə edə bilir [1, s. 90-98].

XX əsrin əvvəllərində İsveç iqtisadçıları E.Nekşer və B.Olin müxtəlif ölkələrdə əmək məhsuldarlığı səviyyəsinin nə üçün fərqli olduğuna aydınlıq gətirməyə çalışdılar. Onlar xarici ticarət nəzəriyyəsini daha da inkişaf etdirərək sübut etdilər ki, bu və ya digər ölkənin ixtisaslaşması onun əmək, kapital və torpaqla təmin olunma dərəcəsi ilə müəyyən edilir. Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, ölkə bu və ya digər istehsal amili ilə yaxşı təmin olunduqda bu amillərdən istifadə olunmaqla istehsal edilən hər hansı bir məhsul ona ucuz başa gəldikdə, həmin məhsulun ixracı üzrə ixtisaslaşır. Bu nəzəriyyə D.Rikardonun “müqayisəli üstünlüklər” nəzəriyyəsini daha da zənginləşdirdi. Həmin nəzəriyyəyə görə, iki və daha çox ölkə arasındakı qarşılıqlı ticarət mübadilə olunan əmtəələrin qiymətlərinin səviyyəsinin yaxınlaşmasına gətirib çıxarmalıdır. Amma nəzəriyyə belə bir sualı açıq qoyur ki, bu yaxınlaşma istehsal amillərinin özlərinin qiymətlərinə və ölkələrin ixtisaslaşmasına necə təsir göstərir?

Həmin suala 1948-ci ildə amerikalı iqtisadçı P.Samuelson cavab verdi. O sübut etdi ki, beynəlxalq ticarət nəticəsində əmtəələrin misli qiymətlərinin səviyyəsinin yaxınlaşması istehsal amillərinin də nisbi qiymətlərinin yaxınlaşmasına səbəb olur. Lakin təkmilləşdirilmiş xarici ticarət nəzəriyyəsini 1953-cü ildə amerikan iqtisadçısı V.Leontyev şübhə altına aldı. O, empirik olaraq sübut etdi ki, kapitalı bol olan ABŞ, sözügedən nəzəriyyənin



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

əksinə olaraq, idxal etdiklərinə nisbətən çox az kapital tutumlu məhsullar ixrac edir. "Leontyev təzadı"nın izahı məlumdur. Lakin həmin nəzəriyyə belə bir suala da cavab verə bilmir: nə üçün texniki-iqtisadi inkişaf səviyyəsi eyni olan ölkələrdə xarici ticarət daha da intensiv olur. Bunun bariz nümunəsi Avropa Birliyi (AB) ölkələridir. Onlarda istehsal amilləri qiymətlərinin səviyyəsi bir-birinə yaxınlaşdıqca, ticarət azalmaq əvəzinə daha da artır. Bu yeni təzad keçən əsrin 60-cı illərində bir sıra iqtisadçılar (P.Vedoorn, İ.Dreze və B.Balass) tərəfindən həll edildi. Onlar öz tədqiqatlarında aydınlaşdırdılar ki, AB ölkələri bir-biri ilə ən çox eyni əmtəə qrupuna aid olan məhsulları idxal və ixrac edirlər. "Yeni təzad" adlanan həmin nəzəriyyə son nəticədə "sahədaxili ticarət" adını aldı. Bəs "sahədaxili ticarət"in hərəkətverici qüvvələri hansılardır və onlar nə üçün Hekşer, Olin, Samuelsonun hamı tərəfindən qəbul edilmiş xarici ticarət nəzəriyyəsi ilə izah edilə bilmir. Sualın cavabı ondan ibarətdir ki, həmin nəzəriyyə mükəmməl rəqabətə əsaslanır və istehsalçıları xarici bazarlara çıxaran istehsalı və satışın miqyası ilə əldə edilən qənaət kimi mühüm stimullaşdırıcı amili nəzərə almırdı. Mükəmməl rəqabət haqqında hipoteza elmi abstraksiyadır və bazar mexanizminin reallıqları onu uzun müddət təsdiq edirdi. Lakin həmin nəzəriyyə beynəlxalq əmək bölgüsünün iştirakçılarının ixtisaslaşmasına milli iqtisadiyyat səviyyəsində baxırdılar və müəssisə səviyyəsinə enmirdilər. Məsələn, dünya bazarlarına tikiş maşını və avtomobil çıxaran "Zinger" və ya "Ford" kimi nəhəngləri nəzərə almırdılar [2, s.15].

Belə nəhənglər isə yüksək rəqabət qabiliyyətinə malik məhsulların istehsalı və satışı üzrə ixtisaslaşır və daxili bazarın hüdudlarından çox uzaqlara çıxır. İstehsal və satışın miqyasına görə onlar bu və ya digər bazarlarda inhisarçı mövqeyi qazanırlar və rəqabəti qeyrimükəmməl edirlər. Bu yol ilə onlar özləri üçün əlverişli konyuktura yaradır və uzun müddət qoruyub saxlayırlar. Bu zaman milli iqtisadiyyatın həmin sahəsində yaradılmış müqayisəli üstünlük müəssisənin müqayisəli üstünlüyü ilə eyni olmaya bilər. Beləliklə, yeni reallıqların təsiri altında ənənəvi müqayisəli üstünlüklər nəzəriyyəsi ikinci plana sıxışdırıldı və sahədaxili ticarət nəzəriyyəsi və praktikası ön plana keçdi. İqtisadçılardan P.Kruqman, E.Helpman, C.Brander və başqaları sübut etdilər ki, unikal məhsul istehsalı üzrə ixtisaslaşma istehsal və satışın miqyasından uduş əldə edilməsinə imkan yaradır. Eynitipli məhsulların diferensiallaşdırılması alıcı zövqünün genişlənməsinə yol açır. Alıcı zövqü isə adambaşına ÜDM artdıqca daha da genişlənir. Ona görə də ölkə əhalisi nə qədər zəngindirsə onun eyniadlı məhsullara (saat, televizor, avtomobil və s.) tələbi də bir o qədər çox diferensiallaşır.

Beləliklə Nekşer-Olin-Samuelson konsepsiyasının qarşılaşdığı real ziddiyyətləri aradan qaldıran "yeni xarici ticarət" nəzəriyyəsinin formalaşmasına yol açdı. Həmin nəzəriyyəyə görə, sahələrarası ticarət sahədaxili rəqabətdən onunla fərqlənir ki, birinci ehtiyatların ölkə

daxilində sahələrarası yenidən bölgüsünə şərait yaradır. Bu isə istehsalın səmərəliliyini artırır, istehsal xərclərini azaldır və məhsulları alıcılar üçün ucuzlaşdırır. İkinci nəzəriyyə isə belə yenidən bölgü ilə əlaqədar deyildir və həm istehsalçılara (miqyas nəticəsində qənaət və inhisar mənfəəti), həm də istehlakçılara (eyni-tipli məhsulların müxtəlifliyi və onların key-fiyyəti durmadan artdığı üçün) faydalıdır. Bu isə məsələnin mahiyyətini köklü surətdə də-yişdirir. Çünki məhsulun çeşidinin diferensial-laşması və sahədaxili rəqabət – müqayisəli istehsal xərclərindən çox, bir-biri ilə əlaqəli digər səbəblərlə əlaqədardır. Bu səbəblər isə həm istehsal və marketinq texnologiyası sahəsində, həm də adambaşına gəlirlər və bunun əsasında alıcı zövqünün diferensiallaş-ması kimi bir- biri ilə əlaqədar amillərlə əlaqə-dardır. Əgər klassik Rikardo nəzəriyyəsi və ölkənin istehsal amilləri ilə təmin olunma dərəcəsi haqqında nəzəriyyə ölkələrarası ticarətin məhsullar ilə aparılmasını nəzərdə tuturdusa, yeni ticarət nəzəriyyəsi sahə struktu-ru və inkişaf səviyyəsi üzrə bir-birinə yaxın olan oxşar məhsulların ölkələrarası ticarətin elmi cəhətdən əsaslandırır.

Birinci halda beynəlxalq ticarətin strukturu yavaş-yavaş və uzunmüddətli təmayüllər əsasında dəyişikliyə məruz qalırdısa ikinci halda belə dəyişikliklər adətən orta və qısamüddətli olur. Onu da nəzərə almaq lazımdır ki, yeni nəzəriyyə köhnəni ikar etmir və onun alternativi deyildir. O, yeni iqtisadi və texnoloji şəraitdə birincini daha da zəngin-ləşdirir. Onların hər ikisi beynəlxalq ticarətin iştirakçılarının ixtisaslaşması səbəblərini aydınlaşdırır. Ancaq birinci ixtisaslaşmanın hərəkətverici qüvvəsini makroiqtisadi (sahələrarası) səviyyədə nəzərdən keçirirsə, ikinci onun səbəblərini mezo və mikroiqtisadi səviyyədə və eyni sahənin daxilində axtarır.

Sonralar aparılan tədqiqatlar yeni nəzə-riyyənin əsas müddəalarını təsdiq etdi. Bununla yanaşı, aydın oldu ki, inkişaf etmiş ölkələr arasında sahədaxili rəqabətin üstün inkişafını yalnız onlarda əhalinin alıcılıq qabiliyyətinin artması ilə izah etmək mümkün deyildir. Belə ticarət həmin ölkələrdə ÜDM və onlarda adambaşına məhsulun orta səviyyəsinə nisbətən daha sürətlə artır [2, s.16-17].

Beləliklə, məlum oldu ki, sahədaxili ticarətin hərəkətverici qüvvəsi istehsal və beynəlxalq mübadilənin üfüqi diferensiallaş-masıdır. Birinci halda eynitipli məhsullar və ya yarıməhsullar öz keyfiyyəti, dizaynı və yaxud qiymətinə görə bir-birindən fərqlənir, ikinci halda isə bazara gələcək hazır məhsulun hissələri, yaxud komponentləri çıxır.

Empirik tədqiqatlar göstərir ki, adambaşına gəlir üzrə ölkələrarası fərq üfiqi differensiallaş-maya müsbət təsir göstərir, lakin məhsulların şaquli diferensiallaşmasına və müvafiq olaraq, sahədaxili ticarətin miqyası və intensivliyinə mənfi təsir edir. Bu isə təbiidir : iki ölkə arasın-da orta adambaşına gəlir arasında fərq nə qədər yüksəkdirsə, onların orta əməkhaqqı arasındakı fərq bir o qədər çoxdur. Bu zaman isə əmək-haqqı yüksək olan ölkədən hazır məhsulun hazırlanması üzrə əməliyyatların bir hissəsini əməkhaqqı səviyyəsi aşağı olan ölkəyə keçi-

rilməsi bir o qədər faydalı olur. Nəticədə həmin ölkələr arasında üfiqi sahədaxili ticarət daha da intensivləşir.

Ona görə də keçən əsrin son onilliyində və XXI əsrin əvvəlində analtiklərin diqqəti əhəmiyyətli dərəcədə istehsal və ticarətin üfüqi ixtisaslaşmasına yönəlmişdir.

İstehsalın və beynəlxalq kooperasiyalaşmanın üfüqi inkişaf təmayüllərinin əsas aparıcı qüvvəsi PMŞ-lərdir.

Elmi-texniki inqilablar dövründə iqtisadiyyatın beynəlmilliləşməsi beynəlxalq iqtisadi münasibətlərin formaları, növləri, dinamikası və strukturunda ciddi dəyişikliklərə yol açmışdır. Müasir beynəlxalq iqtisadi münasibətlər aşağıdakı amillərin təsiri altında inkişaf edir: dünya təsərrüfatının geosiyasi vektorunun dəyişməsi, ETT-nin təsiri, istehsal və kapitalın daha da beynəlmilləlləşməsi.

İnformasiya iqtisadiyyatında durmadan artan elmi-texniki tərəqqi beynəlxalq ticarətdə aparıcı amilə çevrilmişdir. Aparıcı ölkələr beynəlxalq ticarət kanallarına getdikcə daha çox yeni və mükəmməl məhsullar daxil edirlər. Mürəkkəb sənaye məhsulları dünya ticarətinin mühüm hissəsini təşkil edir. Bu isə istehsalda intensiv olaraq yeni texnologiyanın tətbiqinin nəticəsidir. "Texnoloji üstünlük nəzəriyyəsi" 1961-ci ildə Pozner tərəfindən irəli sürülmüşdür və idarəçilik texnikasında, istehsal prosesində və ya əmtəələrdə müxtəlif ölkələrdə meydana gələn texnoloji yeniliklərin beynəlxalq ticarətdə doğurduğu nəticələri elmi cəhətdən əsaslandırır. Texnoloji yenilik istehsalda müxtəlif ölkələr arasında fərqlilik yaradır və yeniliyin tətbiq edildiyi mal üzrə həmin ölkə mühüm üstünlük əldə edir. Belə yeniliklər başqa ölkələrdə yayılana qədər onlara inhisar qiymətləri ilə ixrac edilirlər. Bu cür inhisar vəziyyəti həmin yeniliyi digər ölkələr mənimsəyənə qədər davam edir. Göstərilən müqayisəli üstünlük dəyişkəndir və bir maldan başqa mala, bir ölkədən başqa ölkəyə keçir. Poznerin nəzəriyyəsinə görə, belə texnoloji üstünlükdən həm satan, həm də alan ölkə iqtisadi fayda götürür.

Reymond Vernon isə texnoloji üstünlük nəzəriyyəsinə oxşar olan başqa bir nəzəriyyəni - "məhsulun həyat dövrü" nəzəriyyəsini əsaslandırmışdır. Onun fikrinə görə, müxtəlif məhsullarn istehsalında istifadə edilən amillərin müqayisəli üstünlüyü müxtəlif ölkələrdə fərqlidir. Alim məhsulun həyat dövrünü mərhələlərə bölür. Bu nəzəriyyə ilə elm sahəsinə gətirilmiş yenilik ondan ibarətdir ki , artıq təhlil obyekti kimi ayrı-ayrı ölkələr deyil, TMŞ-lər ön plana çəkilir.

Amerikanın digər tanınmış iqtisadçısı M.Porterin "beynəlxalq rəqabət gücü" adlı nəzəriyyəsi ilə dünya bazarlarında ölkələrin rəqabət qabiliyyətini müəyyən edən dörd əsas parametr əsaslandırılmışdır: amillərin şərtləri; tələb şərtləri; qanun və xidmət sahələri ; firmaların strategiyaları və rəqabət.

Son məhsulun ən çox əməktutumlu və yüksək ixtisas tələb etməyən hazırlanma mərhələsi, adətən, ucuz işçi qüvvəsi bol olan zəif inkişaf etmiş ölkələrdə yerləşdirilir. Emaledici sənayenin əksər sahələrində istehsal prosesinin bölgüsü hasilat sənayesindən başla-

yaraq xammalın işlənməsi və ayrı-ayrı hissələr və komponentlərin hazırlanması son məhsulun onlardan yığılması üzrə əməliyyatlar ardıcıl texnoloji zəncir təşkil edir. Adətən, həmin piramidanın ən aşağı mərhələləri az kapitaltutumludur və işçilərin ixtisasına o qədər də yüksək tələb qoymur. Buna görə də onlar, adətən, zəif inkişaf etmiş ölkələrdə, orta mərhələlər orta səviyyəli ölkələrdə, son mərhələ isə yüksək ixtisaslı işçilərə malik olan inkişaf etmiş ölkələrdə yerləşdirilirlər.

İqtisadi proseslərin gedişi göstərdi ki, sonralar inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında ticarət-iqtisadi əlaqələrin xarakterində dəyişiklik özünü büruzə verir. Belə ki, əksər inkişaf etməkdə olan ölkələrin aqrar-xammal sahəsində ixtisaslaşmasına yeni funksiya əlavə edildi: onlar material və əmək-tutumlu ağır emaledici sahələrin məhsullarını da inkişaf etmiş ölkələr üçün istehsal etməyə başladılar.

Dünya təsərrüfatının beynəlmilləşməsi milli iqtisadiyyatın xarici bazarlardan aslılığı şərtlərində də özünü göstərir. İstehsalın ixracata gedən hissəsi (ixrac kvotası) və istehlakda idxalın payı (idxal kvotası) artır. Dünya bazarından kiçik və orta ixracatçı və idxalatçılar sıxışdırılıb çıxarılır. Xarici ticarət əlaqələri getdikcə daha çox inhisarçı birləşmələrin əlində cəmlənir.

Qeyd olunmalıdır ki, bütün dünya ölkələri bu və ya digər dərəcədə bir-birlərindən asılıdırlar. Həmçinin, hər bir ölkə özünün iqtisadi inkişafını təmin etmək üçün digər ölkələrlə iqtisadi və ticarət əlaqləri qurur. Qloballaşma şəraitinin bütün dünya ölkələri qarşılıqlı surətdə bir-birlərindən asılıdırlar və özlərinin iqtisadi inkişafını təmin etmək məqsədi ilə öz səylərini əsirgəmirlər.

ABŞ iqtisadçısı R.Kuper qarşılıqlı asılılıq problemini müxtəlif nöqteyi nəzərdən araşdırır. Onun fikrinə görə, dörd növ qarşılıqlı asılılıq mövcuddur:

1. Struktur asılılığı. Ölkələr bir-birilə o qədər qarşılıqlı aslılıq vəziyyətindədirlər ki, hər hansı bir ölkənin iqtisadiyyatında baş verən əhəmiyyətli dəyişiklik dərhal digər ölkələrdə əks-səda doğurur;

2. İqtisadi siyasət sahəsində qarşıya qoyulan məqsədlərin qarşılıqlı asılılığı;

3. İqtisadi inkişafın xarici amillərinin qarşılıqlı asılılığı;

4. Siyasi cəhətdən qarşılıqlı asılılıq.

Göstərilən nəzəriyyələr qloballaşma dövründə beynəlxalq əmək bölgüsü sisteminin modernləşdirilməsi sahəsində digər nəzəriyyələrin meydana çıxmasına şərait yaratmışlar [3, s.61].

Ölkənin müasir iqtisadi inkişafı dünya iqtisadi sistemi ilə milli iqtisadiyyatın qarşılıqlı təsiri və əlaqələrinin diqqətlə öyrənilib nəzərə alınmasını tələb edir. Çünki son onilliklər ərzində beynəlxalq əmək bölgüsünün daha dərinləşməsi və məhsuldar qüvvələrin beynəlmiləlləşməsi nəticəsində milli iqtisadiyyatların qarşılıqlı əlaqələri və qarşılıqlı asılılığı durmadan artır.

Müasir dövrdə heç bir milli iqtisadiyyat təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Milli iqtisadiyyatın sənayesi, xidmət sahələri,

gəlir və məşğulluq səviyyələri, həyat standartları həmin ölkənin beynəlxalq iqtisadi əlaqələrindən əhəmiyyətli dərəcədə asılıdır. Bu asılılıq beynəlxalq mal və xidmət hərəkətləri, işçi qüvvəsi, şirkətlər, kapital qoyuluşları və texnologiya mübadiləsi yolu ilə reallaşır.

Keçmişdə beynəlxalq əmək bölgüsü həlledici amili əsas etibarilə təbii ehtiyatlar idisə, elmi-texniki inqilablar iqtisadi amilləri ön plana çıxarmışdır. Bunlara isə məhsuldar qüvvələrin inkişafı səviyyəsi, elmi-texniki tərəqqi, işçi qüvvəsinin hazırlanması dərəcəsi, bilik və informasiyalar daxildir [4, s.11].

İqtisadi artımın mühüm göstəricilərindən biri ÜDM həcminin real olaraq artmasıdır. Klassik xarici ticarət nəzəriyyələrində iqtisadi artım istehsal imkanları əyrisinin xaricə doğru genişlənməsi şəklində təhlil edilir [1, s.99-100].

İqtisadi artımın iki mühüm mənbəyindən biri istehsal amilləri həcminin artımı, digəri isə texnoloji inkişafıdır. Klassiklərin təhlilində onların ikisinin də həcmi sabit hesab edilirdi. Lakin reallıq göstərir ki, istehsal amilləri də, texnologiya da durmadan dəyişikliyə məruz qalır.

İqtisadi artım ölkənin xarici ticarətin həcminə və strukturuna təsir göstərir. İqtisadi artım nəticəsində xarici ticarət həcminin dəyişməsi bu artımın hansı sahələrdən qaynaqlandığından və tələb şəraitindəki dəyişmələrdən asılıdır. Əgər artım ixracatla əlaqədardısa, ölkənin xarici ticarət həcmi durmadan artır. Çünki bu halda ölkənin ixracat və idxalat imkanları genişlənir. Bunun əksinə olaraq, iqtisadi artım idxalı əvəzetmə siyasəti ilə bu xarici ticarətin həcminə məhdudlaşdırıcı təsir göstərir. Çünki idxalı əvəzetmə siyasəti mal idxalının məhdudlaşdırılmasına yönəldilir.

Bunlarla yanaşı, xarici ticarət həcminin real olaraq dəyişdiyini müəyyən etmək üçün tələb sahəsində olan dəyişiklikləri də nəzərə almaq lazımdır. Məsələn, ixrac mallarının istehsalı artan zaman, əgər daxili tələb bu mallara yönələrsə, ixracata ayrılan pay azaldığı üçün xaricə satış da real artım olmaya bilər.

İqtisadi artım xarici ticarətin həcminə təsir göstərməklə yanaşı, xarici ticarət şərtlərini də dəyişdirə bilir. Məsələn, iki ölkə arasında aparılan ticarətdə onlardan birinin daha çox mal satmaq istəməsi, digərini eyni şərtlər daxilində onun qiymətləri aşağı salması (xarici ticarət şərtlərini öz əleyhinə dəyişməsi) ilə mümkün ola bilər. İqtisadi inkişaf, hansı sahədə baş verməsindən asılı olmayaraq, cəmi mal və xidmət istehsalının artması demək olduğu üçün, adətən, ölkə əhalisinin rifah səviyyəsinin yüksəlməsinə səbəb olur. Bununla yanaşı, xarici ticarət şərtlərinin pisləşməsi inkişaf edən ölkədə əhalinin rifah səviyyəsinə mənfi təsir edir. Çünki bu zaman artan gəlirin bir hissəsi xarici tərəfdaşa keçir. Real dünyada iri miqyaslı ölkələrin iqtisadi inkişafı prosesində belə ehtimallar daim mövcuddur. Kiçik miqyaslı ölkələrdə isə belə ehtimallar azdır [5, s.97-98].

İqtisadi inkişaf cəmiyyətin zövqündə və hansı mallara üstünlük verməsində də dəyişiklik yaradır. Xarici ticarət inkişaf etdikcə həmin ölkələrin əhalisi yeni-yeni mallarla qarşılaşır, istehlakın miqyası və strukturu dəyişir. Başqa

sözlə, xarici ticarət yeni ehtiyatlar yaradır. Bütün bunlar isə ölkə istehsalının daxili strukturunda da dəyişikliklərə yol açır. Ölkə əhalisinin müxtəlif növ mal və xidmətlərə olan tələbatı qeyri-bərabər artır. Gəlirlər artdıqca tələbin ümumi həcmində, şərti olaraq, ilkin tələbat malları adlanan mal qrupunun payı azalır, bahalı, dəbdəbəli digər mal qrupunun payı isə artır.

Alman iqtisadçısı Engelin adı ilə adlanan bu qanunauyğunluqda ilkin tələbat mallarına ərzaq , dəbdəbəli mallara isə uzun müddət istifadə olunan mallar (soyuducu, televizor və. s) aid edilmişdir. Engel qanunundan belə nəticə çıxır ki, tələbin strukturunun müxtəlif nisbətdə dəyişməsi nəticəsində dəbdəbəli malların qiyməti nisbi olaraq artır, ərzaq mallarının qiyməti isə azalır [6. s.180].


*Улвия ШИРИНОВА*

**Теоретические основы развития мирохозяйственных связей**

*Резюме*

В статье анализируются теоретические основы развития международного разделения труда и мировых экономических связей. Особое внимание концентрируется на анализе современных экономических воззрений.



*Ulviya SHIRINOVA*

**Theoretical basis of development world economy relations**

*Resume*

Theoretical basis of development world economy relations and world division of labour is being analyzed in the article. Special attention is given to the modern economy opinions.


*Ədəbiyyat*


1. Киреев. Международная экономика. М, 1998.
2. Шишков Ю. Эволюция теорий международного разделения труда. МЭМУ , 2009 №2 ,с.15
3. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, “Adiloğlu” nəşr., 2008, s. 428.
4. Гаджиев Ш. Азербайджан на пути к мировому сообществу : стратегия внешнеэкономического развития. Киев, 2000.
5. Seyidoğlu Ş. Uluslararası iktisat : teori , politika və uyğulama , İstanbul , Güzem Yayınları , 2003 s. 663
6. İyibozkurt E. Uluslararası iktisat. Teori ve politika. Bursa, Ezgi kitabevi yayınları, 1995, s. 391.


♦